# BEYNƏLXALQ HUMANİTAR HÜQUQUN TƏTBİQ SAHƏSİ

**Məmmədov Nəsir Natiq oğlu,**
**hüquq üzrə fəlsəfə doktoru,**
**BDU-nun doktorantı.**
E-mail: lala-axmedova@mail.ru

*Bu məqalədə beynəlxalq humanitar hüququn tətbiq sahəsi araşdırılmışdır. Məqalədə ardıcıl olaraq beynəlxalq humanitar hüququn vəziyyətə görə, şəxslərə görə, zamana görə və məkana görə tətbiqi məsələləri təhlil edilmişdir. Müəllif beynəlxalq humanitar hüququn tətbiq sahəsinin olduqca mürəkkəb və çoxcəhətli bir kateqoriya olduğunu, həmin tətbiq sahəsinə daxil olan halların və bunu şərtləndirən meyarların tam dəqiqliyi təyin olunmadığını diqqətə çatdırır. Həmçinin məqalədə hərbi əsirlərin mübadiləsi institutunun beynəlxalq humanitar hüququn mənbəyini təşkil edən konvensiylarda hüquqi aspektdə təsbit edilməsi zərurəti, beynəlxalq humanitar hüquq normalarının sülhyaratma əməliyyatlarına tətbiqinin xüsusiyyətləri, eləcə də kibərməkanda baş verən silahlı münaqişələrə münasibətdə beynəlxalq humanitar hüququn tətbiqi kimi xüsusi aktuallıq kəsb edən məsələlər tədqiq edilir.*

**Açar sözlər:** beynəlxalq hüquq, beynəlxalq humanitar hüquq, beynəlxalq silahlı münaqişə, Cenevrə konvensiyaları, beynəlxalq humanitar hüququn tətbiqi, vəziyyətə görə tətbiq, şəxslərə görə tətbiq, zamana görə tətbiq, məkana görə tətbiq.

Beynəlxalq humanitar hüququn məqsədi silahlı münaqişələrin nəticələrini məhdudlaşdırmaqdan ibarət olsa da, onun maddi tətbiq sahəsinə düşən halların tam və dəqiq dairəsi birmənalı surətdə müəyyən edilməyib. Müvafiq konvensiyalar silahlı münaqişələrin müxtəlif tiplərini qeyd etdiyi üçün bu çoxcəhətli anlayışın hüquqi xüsusiyyətlərini dərk etmək imkanı yaranır. Lakin həmin dərketmə alətləri bu anlayışın məzmununu kifayət qədər dəqiqliklə müəyyən etməyə imkan verən meyarlar təklif etmir. Burada müəyyən aydınlaşdırma lazımdır. Həqiqətən də, vəziyyətin hüquqi cəhətdən necə müəyyən edilməsindən asılı olaraq, müxtəlif hallarda müxtəlif normalar tətbiq edilir. Nəzərə alınmalı olan hüquqi rejimlər heç də həmişə eyni olmur və özündə, məsələn, beynəlxalq və qeyri-beynəlxalq silahlı münaqişə şəraitini əks etdirib-etdirməməsindən asılı olur [9].

Beynəlxalq humanitar hüququn tətbiqinin, bir qayda olaraq, aşağıdakı sahələri fərqləndirilir:

a) vəziyyətə görə tətbiq (ratione situations);

b) şəxslərə görə tətbiq (ratione personae);

c) zamana görə tətbiq (ratione temporis);

ç) məkana görə tətbiq (ratione loci).

Vəziyyətə görə tətbiq onu nəzərdə tutur ki, beynəlxalq humanitar hüquq yalnız silahlı münaqişə halındatətbiq edilir. Yəni beynəlxalq humanitar hüquq normalarının tətbiq edilməsi üçün silahlı münaqişə vəziyyətinin mövcud olması vacib şərtdir. Qeyd etmək lazımdır ki, beynəlxalq humanitar hüquq normalarının tətbiqi yalnız obyektiv şərtlərin mövcud olması ilə şərtlənir və döyüş aparan tərəflərin situasiyanı necə tövsif etməsindən asılı deyildir. Əgər iki və ya daha çox dövlət arasında

silahlı münaqişə yaranırsa, hətta döyüşən tərəflərin özləri müharibə vəziyyətini etiraf və təsdiq etməsələr belə, həmin münaqişə beynəlxalq münaqişə kimi xarakterizə olunur. Beynəlxalq silahlı münaqişə hallarında dörd Cenevrə konvensiyası və I Əlavə Protokol tətbiq edilir [7, s. 23]. Konkret situasiyalardan asılı olaraq bu hallar dövlətlər arasında açıq münaqişə və ya əvvəllər mövcud olmuş daxili münaqişəyə müdaxilə xarakteri kəsb edə bilər. Sonuncu halda münaqişə beynəlmiləlləşir.

Cenevrə Konvensiyalarının kommentariyasında qeyd olunur ki, münaqişənin davam etmə müddəti, dağıdıcılıq təsiri, qurbanların sayından asılı olmayaraq dövlətlər arasında baş verən silahlı qüvvələrin tətbiqinə səbəb olan hər hansı bir mübahisə 2-ci maddənin mənasına görə silahlı münaqişə hesab olunur. Yuqoslaviya Tribunalı çərçivəsində Tadiçin apellyasiyası üzrə Apellyasiya Kamerasının qeyd şərtində göstərilir ki, silahlı münaqişə, əgər o iki və ya daha çox dövlətin arasında baş verirsə, beynəlxalq xarakter daşıyır. Bundan başqa, bir dövlətin ərazisində başlayan daxili hərbi münaqişə də beynəlxalq xarakter ala bilər. Bu, o zaman baş verir ki, həmin münaqişəyə başqa dövlət qarışır və ya daxili hərbi münaqişənin bəzi iştirakçıları həmin müdaxilə edən dövlətin adından hərəkət edirlər [6, s. 22].

Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin birinci Cenevrə Konvensiyasına dair Kommentariyasında belə bir mövqe ifadə olunur ki, silahlı münaqişə vəziyyətinin mövcudluğunun müəyyən edilməsi iki və ya daha çox dövlət arasında düşmənçilik zəmnində silahlı qüvvələrin tətbiqi ilə müşayiət olunan qarşıdurmanın olması ilə təsbit edilir. Bu tərif beynəlxalq silahlı münaqişələrə şamil olunur. Beynəlxalq cinayət tribunallarının fəaliyyətində həm doktrinal, həm də praktiki səviyyədə geniş tanınan tərif silahlı münaqişəni onun beynəlxalq xarakter daşıyıb-daşımamasından asılı olmayaraq müəyyən edir: “dövlətlərarası münasibətlərdə silahlı qüvvələrin tətbiqi və ya dövlət hakimiyyəti ilə mütəşşəkkil silahlı qruplaşmalar arasında və ya dövlətin hüdudları daxilində belə qruplaşmalar arasında uzunmüddətli silahlı zorakılıq” [14, s. 44-53]. Silahlı münaqişə əsasən üç konkret situasiyada mövcud ola bilər:

– tərəflər arasında müharibə elan edilməzdən əvvəl mövcud olan silahlı münaqişə;

– müharibə edilmədən baş verən silahlı münaqişə;

– azadlıq mübarizəsinin təzahürü olan silahlı münaqişə.

Bəlli intensivliyə çatmış beynəlxalq xarakter daşımayan silahlı münaqişə zamanı II Əlavə Protokol tərtib edilir. Göstərmək lazımdır ki, qeyri-beynəlxalq xarakterli silahlı münaqişələrə dair beynəlxalq humanitar hüquq normaları beynəlxalq xarakterli silahlı münaqişələrə dair normalardan əhəmiyyətli dərəcədə azdır. Qeyri-beynəlxalq xarakterli silahlı münaqişə dedikdə, razılığa gəlmiş yüksək tərəflərdən hər hansı birinin ərazisində, onun silahlı qüvvələri ilə hökumət əleyhinə silahlı qruplaşmalar və ya onun ərazisinin bir hissəsinə nəzrət edən digər mütəşəkkil silahlı qruplar arasında baş verən silahlı münaqişə nəzərdə tutulur.

R.Ə.Axundov göstərir ki, beynəlxalq hüquqi baxımdan beynəlxalq silahlı münaqişələrə silahlı münaqişələr hüququ bütövlükdə tətbiq edilirsə, qeyri-beynəlxalq münaqişələrə onların müəyyən bir hissəsi tətbiq edilir. Bu mənada qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr üçün beynəlxalq humanitar hüququn ayrıca yarımsahəsi (institutu) fəaliyyət göstərməkdədir [1, s. 15].

Cenevrə konvensiyaları üçün ümumi olan 3-cü maddə qeyri-beynəlxalq xarakterli silahlı münaqişəyə anlayış verməsə də, Cenevrə Konvensiyalarına II Əlavə Protokol belə münaqişələrin məzmununun və strukturunun dəqiqləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Göstərilən protokol daxili asayişin, qaydanın, nizam-intizamın pozulması, habelə daxili gərginlik hallarını silahlı münaqişə kimi müəyyən etmir və beləliklə, göstərilən hallar qeyri-beynəlxalq silahlı münaqişələr kateqoriyasından istisna olunur.

Cenevrə Konvensiyalarına II Əlavə Protokolun 1-ci maddəsində göstərilir ki, "3-cü ümumi maddəni təkmilləşdirən və tamamlayan, 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyasına əlavə olunan bu Protokol, Konvensiyanın mövcud şərtlərini və əlavələrinə dəyişiklik etmədən 1-ci Protokolda əhatə olunmayan və razılığa gəlmiş Yüksək Tərəflərdən birinin ərazisində həmin Tərəfin silahlı qüvvələri ilə, məsul rəhbərlik altında davamlı və razılaşdırılmış hərbi əməliyyatlar aparmaq və bu Protokolu icra etmək iqtidarında olacaq qədər sözügedən Tərəfin ərazisinin bir qismi üzərində nəzarəti həyata keçirən müxalifət qüvvələri və ya digər silahlanmış mütəşəkkil dəstələr arasında baş verən bütün silahlı münaqişələrə tətbiq olunmalıdır. Bu Protokol silahlı münaqişə olmadığına görə iğtişaşlara, ayrıca götürülmüş və təsadüfi zorakılıq əməlləri və buna oxşar digər aktlar kimi ölkədaxili iğtişaş və gərginlik vəziyyətlərinə tətbiq edilməməlidir" [2, s. 83-84].

T.D.Matveyeva qeyd edir ki, humanitar hüquq silahlı münaqişə əlamətlərini özündə əks etdirən real şəraitin yaranmasından bilavasitə sonra fəaliyyət göstərməyə başlayır. Cenevrə konvensiyalarına uyğun olaraq beynəlxalq humanitar hüquq "ilk atəşin açılması ilə" tətbiq edilməyə başlayır və "hərbi əməliyyatların ümumilikdə sona çatması ilə" onun tətbiqi dayanır. Müharibə və ya istənilən digər silahlı münaqişə elan olunduğu halda, hətta tərəflərdən biri müharibə vəziyyətininin mövcudluğunu qəbul etməsə belə, beynəlxalq humanitar hüquq normalarının tətbiqi üçün əsas yaranır. Beynəlxalq humanitar hüquq normalarının müdafiə imkanlarından hərbi əməliyyatlarda bilavasitə iştirak etməyən şəxslər istifadə edir. Bunlar silahı yerə qoyan, habelə xəstəlik, yaralanma, tutulma və istənilən digər səbəblərə görə hərbi əməliyyatlarda iştirakı dayandıran şəxslərdir. Həmin şəxslərə münasibətdə aşağıdakılar qadağandır:

– onların həyatına və fiziki toxunulmazlığına qəsd etmək, xüsusən də, adamöldürmənin bütün növləri, şikəst etmək, sərt davranmaq, işgəncə və əzab vermək;

– onları əsir götürmək;

– insan ləyaqətini alçaltmaq, xüsusən də, təhqiredici və aşağılayıcı davranışlara yol vermək;

– lazımi qaydada yaradılan məhkəmə tərəfindən verilmiş ilkin qərar olmadan mühakimə etmək və cəza vermək [11, s. 316-318].

Beynəlxalq humanitar hüquq şəxslərə münasibətdə daha məhdud tətbiq sahəsinə malikdir. Beynəlxalq silahlı münaqişə halında tətbiq edilən normaların əksəriyyəti "himayə olunan şəxslərə" aiddir. Vətəndaşı olduqları dövlətin hakimiyyəti altında olanlar isə həmin şəxslərə aid deyil. Bununla belə, daxili silahlı münaqişə halında tətbiq edilən normalar dövlətin öz vətəndaşlarına münasibətdə öhdəliklərini müəyyən edir. Nəzərə almaq lazımdır ki, yaralılara, xəstələrə və gəmi qəzasına məruz qalanlara yardım etmək öhdəliyi hansı tərəfə məxsus olmasından asılı olmayaraq bütün şəxslərə şamil edilir [15; 16, s. 119].

Cenevrə qanunvericiliyi silahlı münaqişədə xüsusilə müdafiəsiz olanları, döyüşdə iştirak etməyənləri və hərbi əsirlər kimi müxtəlif sinif insanları mühafizə etmək üçün hüquqi rejimlərin qarşılıqlı əlaqəsini təşkil edir[2, s. 78]. Bu kontekstdə qeyd etmək lazımdır ki, I Cenevrə Konvensiyası quru döyüşləri üzrə yaralı və xəstələrin, II Cenevrə Konvensiyası dəniz döyüşləri üzrə yaralı, xəstə və gəmi qəzasına uğrayan şəxslərin, III Cenevrə Konvensiyası hərbi əsirlərin, IV Cenevrə Konvensiyası isə mülki əhalinin himayə edilməsini nəzərdə tutur.

Fiziki şəxslərin müdafiəsinə dair istənilən hüquqi yanaşma çox vaxt dilemma ilə qarşılaşır. Daha səmərəli müdafiənin təmin olunması üçün həmin müdafiənin şamil olunduğu şəxslərin dairəsi dəqiq müəyyən edilməlidir. Onlara daha yüksək himayə tədbirlərinin təqdim edilməsi digər şəxslər üçün nəzərdə tutulmuş ümumi müdafənin zəiflədilməsi riskini yaradır. Humanitar hüquq üzrə müdafiənin şamil olunduğu şəxslər dairəsinin dəqiq müəyyən edilməsi bu və ya digər şəxslər kateqoriyasının həmin şəxslər dairəsinə aid edilməsi ilə bağlı mübahisələr yarada bilər. Bunlar isə silahlı münaqişə qurbanlarına zəruri yardımların göstərilməsində ləngimələrə və çətinliklərə səbəb ola bilər. Belə hallara, məsələn, dövləti təmsil etməyən transmilli silahlı qrupların üzvlərinə kombatant statusunun şamil edilməsi ilə bağlı mübahisəni misal göstərmək olar. Beynəlxalq humanitar hüquqda mülki əhali, kombatantlar, yaralılar və xəstələr, qadınlar və uşaqlar, tutulmuş və tərkisilah edilmiş şəxslər, hərbi əsirlər, işğal edilmiş və ya mühasirəyə alınmış ərazilərin sakinləri üçün fərqli normalar mövcuddur. Belə yanaşmanın üstünlüyü ayrı-ayrı kateqoriya şəxslərin vəziyyətdən asılı olaraq məruz qaldıqları konkret təhdidlərdən qorunması üçün daha adekvat hüquq normalarının formulə edilməsinə imkan yaratmasıdır [12]. Bu metodun mənfi cəhəti isə ondan ibarətdir ki, şəxslər dairəsi nə qədər qəti müəyyən edilərsə, ayrı-ayrı şəxslərin konvensiyaların himayəsindən kənarda qalması riski də bir o qədər yüksək olar.

Hazırkı şəraitdə dünyada sülhyaratma əməliyyatlarında bilavasitə iştirak edən BMT personalına münasibətdə beynəlxalq humanitar hüquq normalarının tətbiqi məsələsi xüsusi aktuallıq kəsb etməyə başlamışdır. Müasir dövrdə belə əməliyyatların dairəsi getdikcə genişlənir, eyni zamanda onlar daha fərqli və mürəkkəb xarakter kəsb edir. Güc tətbiqi yalnız özünümüdafiə ilə məhdudlaşan klassik sülhyaratma əməliyuyatlarından fərqli olaraq, müasir dövrdə BMT personalı digər hallarda da, məsələn, onların öz mandatlarını yerinə yetirmələrinə əngəl törədilməsi cəhdlərinin qarşısının alınması üçün silahdan istifadə edə bilirlər. Ona görə də, praktikada sülhyaratma əməliyyatlarının aparılması zamanı beynəlxalq humanitar hüquq normalarının tətbiqi ilə bağlı hələ də öz həllini tapmayan çoxsaylı məsələlər meydana çıxır: beynəlxalq humanitar hüquq normaları sülhyaratma əməliyyatlarına tətbiq edilə bilərmi; onlara hansı andan etibarən və hansı həcmdə riayət etmək lazımdır; BMT qüvvələrini təmsil edən hərbi qulluqçuların statusu kombatant və hərbi əsirlərin statusu ilə uyğun gələ bilərmi və s. [8, s. 113]. Qeyd etmək lazımdır ki, nə beynəlxalq humanitar hüququn mənbələrində, nə də beynəlxalq məhkəmə orqanlarının təcrübəsində bu suallara birmənalı cavab verilmir.

Məlum olduğu kimi, silahlı münaqişələr dövründə həm insan hüquqları sahəsində normalar, həm də beynəlxalq humanitar hü-

quq sahəsində normalar tətbiq olunur. Silahlı münaqişələr dövründə beynəlxalq humanitar hüquq çox vaxt daha səmərəli olur. Belə ki, beynəlxalq humanitar hüquq normaları konkret olaraq silahlı münaqişə dövründə bilavasitə yaralılara və digər şəkildə hərbi əməliyyatlardan kənarda qalan hərbi qulluqçulara və mülki əhaliyə münasibətdə insan hüquqlarının pozulması hallarının məhdudlaşdırılmasına və qarşısının alınmasına yönəlmişdir [3, s. 278-294]. Əgər hərbi əməliyyatlar beynəlxalq humanitar hüquq normalarının tətbiqi üçün kifayət qədər (bunu zəruri edəcək səviyyədə) intensiv xarakter daşımırsa, habelə bu və ya digər şəxslər Cenevrə konvensiyalarının himayəsində olan şəxslər kateqoriyasına daxil deyildirsə, bu hallarda insan hüquq və azadlıqlarının əsas təminatlarını təsbit edən beynəlxalq hüquqi sənədlər tətbiq edilir.

Cenevrə konvensiyaları və onlara əlavə protokollar himayə altında olan digər həssas kateqoriya şəxslərlə yanaşı tibb işçilərinə və jurnalistlərə də xüsusi himayə tədbirləri nəzərdə tutur.IV Cenevrə Konvensiyasının müddəaları ilə əlillərin, ahılların, 15 yaşınadək uşaqların, hamilə və 7 yaşınadək uşağı olan qadınların müharibənin mənfi təsirlərindən qorunmasına yönələn kompleks tədbirlər təsbit edilmişdir. Həmçinin silahlı münaqişə dövründə qadın və uşaqların həyatının və hüquqlarının qorunması da beynəlxalq humanitar hüquq normalarının təsir dairəsində xüsusi yer tutur.

Müasir silahlı münaqişələri xarakterizə edən təhlükəli tendensiyalardan biri onların iştirakçılarının gəncləşməsidir. Bir çox silahlı münaqişələrdə məhz gənc insanlar, çox zaman isə uşaqlar həm birbaşa kombatant (silahlı qüvvələrin tərkibinə daxil olan şəxs) kimi, həm də dolayı şəxslər kimi fəal rol oynayırlar. Bu baxımdan uşaqlar silahlı münaqişədə silahlı əsgər kimi də çıxış edə bilərlər. Ona görə də silahlı münaqişə dövründə uşaqların hüquqi statusu əhəmiyyətli dəyişikliyə məruz qalır. Belə ki, silahlı münaqişə zamanı onlar həm zorakılıq subyekti, həm də obyekti ola bilərlər. Statusuna görə obyekt uşaqlara heç bir halda silah tətbiq edilə bilməz. Çünki, subyekt uşaqlar silahlı münaqişənin bilavasitə iştirakçısı kimi, obyekt uşaqlar isə mülki əhalinin bir kateqoriyası kimi nəzərdən keçirilir [3, s. 278-294]. Silah münaqişələr zamanı uşaq hüquqlarının pozulması halları təssüf ki, az deyil. Təəssüf ki, bu zaman pozulan onların yalnız sağlamlıq, təhsil və s. bu kimi hüquqları deyil, həm də yaşamaq hüququdur. Təkcə Xocalı soyqırımı nəticəsində 83 azərbaycanlı uşaq öz həyatından məhrum olunub.Ümumilikdə 155 uşaq isə valideynlərindən birini və ya hər ikisini itirib. 44 günlük müharibə zamanı isə 12 uşaq ermənilər tərəfindən qətlə yetirilib, 5 uşaq valideynlərinin hər ikisini itirib. Belə hallara dünyada yaxın dövrlərdə və hal-hazırda mövcud olan silahlı münaqişə ocaqlarında da (Ukrayna, Suriya, İraq və s.) rast gəlmək olar. Ukraynada baş verən silahlı münaqişə zamanı 400-ə yaxın uşaq öldürülüb, 800-ə yaxını yaralanıb. Təbii ki, sivil dünya üçün, bu, çox acınacaqlı bir mənzərədir.

Beynəlxalq hüquq normaları ilə silahlı münaqişələr dövründə mülki əhalinin müdafiəsi zərurəti geniş şəkildə təsbit edilərək əsaslandırılır. Lakin təəssüflər olsun ki, real gerçəklikdə çox zaman bu normalara əməl olunmur. Bunu 44 günlük müharibə zamanı Ermənistanın bilavasitə mülki əhalini hədəf alaraq Azərbaycanın ikinci böyük şəhəri olan və cəbhə xəttindən xeyli uzaqda yerləşən Gəncəyə raket zərbəsi endirməsi nəticəsində mülki əhali (o cümlədən beynəlxalq humanitar

hüquq normalarının xüsusi müdafiə obyekti və həssas təbəqələr kimi qadın və uşaqlar) arasında çoxsaylı tələfatlara dünya birliyinin olduqca laqeyd və ikili standartlara əsaslanan yanaşması da sübut edir. Ənənəvi olaraq "demokratiya və insan haqlarının aliliyi"ndən bəhs edən beynəlxalq təşkilatların və dövlətlərin Gəncə terroru, Ermənistanın insanlıq əleyhinə cinayəti kontekstində beynəlxalq humanitar hüquq normalarına etinasızlıq göstərməsi artıq adi hala çevrilmişdir. Dünya birliyinin Xocalı soyqırımına lazımi qiymət verməməsi mənfur düşməni Gəncədə bu cür dəhşətli müharibə cinayəti törətməyə cürətləndirmişdir. Xocalıda və Gəncədə ermənilərin mülki və günahsız azərbaycanlılara, köməksiz qocalara, qadınlara və uşaqlara qarşı törətdikləri amansız vəhşilik, soyqırım heç bir humanitar hüquq normalarına sığmır. Təəssüflər olsun ki, bəzi dövlətlər fiksiya və uydurmaya əsaslanan, heç bir tarixi mənbə ilə sübut olunmayan "qondarma" erməni soyqırımını parlament səviyyəsində tanıdığı halda, dünya birliyi yaxın keçmişdə və gözü qarşısında baş vermiş bu aşkar faktlara lazımi qiymət vermək istəmir. Dünya birliyi heç bir ölkənin sığortalanmadığı gələcək humanitar böhranların qarşısını almaq istəyirsə, beynəlxalq humanitar hüquq normalarının heç bir ayrı-seçkilik qoyulmadan birmənalı şəkildə həyata keçirilməsini təmin edən real və işlək mexanizmlər hazırlanmalı və heç bir istisnaya yol verilmədən lazım olan hər bir halda tətbiq olunmalıdır [4].

Zamana görə tətbiqi baxımından beynəlxalq humanitar hüquq normalarının üç qrupu fərqləndirilir:

1. hərbi əməliyyatlar başladıqda fəaliyyət göstərməyə başlayan və hərbi əməliyyatların bitməsi ilə fəaliyyətini dayandıran beynəlxalq humanitar hüquq normaları;

2. tətbiqi zamanla məhdudlaşdırılmayan beynəlxalq humanitar hüquq normaları;

3. konkret vəzifələr icra edilənə qədər fəaliyyət göstərən beynəlxalq humanitar hüquq normaları.

Beynəlxalq humanitar hüquq normalarının çox hissəsi məhz silahlı münaqişənin başlanması ilə fəaliyyət göstərməyə başlayır. Hərbi əməliyyatların başa çatdığı an həmin normaların tətbiqi də dayandırılır. Dördüncü Cenevrə Konvensiyasının 6.2-ci maddəsində deyilir ki, münaqişə tərəflərinin ərazisində mövcud Konvensiyanın tətbiqinə hərbi əməliyyatların başa çatdığı an son qoyulmalıdır.

Elə beynəlxalq humanitar hüquq normaları vardır ki, həmin normaların tətbiq edilməsi üçün müharibə və ya sülh dövrünün mövcud olması hər hansı önəm kəsb etmir. Məsələn, ölkə ərazisində beynəlxalq humanitar hüquq normalarının təbliği, müvafiq normaların tədris materiallarına daxil edilməsi və s. ilə bağlı normalar. Bu cür normaların tətbiqi üçün əsas şərt müvafiq konvensiyanın və ya əlavə protokolun ölkə ərazisində qüvvəyə minməsidir.

Hərbi əməliyyatlar müəyyən ərazi daxilində, bəlli məkan çərçivəsində: quru, su və hava məkanında aparıla bilər. Qeyd etmək lazımdır ki, hərbi əməliyyatların məkan çərçivəsini ifadə etmək üçün "müharibə teatrı" və "hərbi əməliyyatlar teatrı" anlayışlarından istifadə edilir. Müharibə teatrı –döyüşən dövlətlərin bütün ərazisi (quru, hava, dəniz), habelə həmin dövlətlərin potensial olaraq hərbi əməliyyatlar apara biləcəkləri dünya okeanının dövlətlərin ərazi sualarından kənarda qalan hissəsi, onların üzərindəki hava məkanıdır. Hərbi əməliyyatlar teatrı isə - döyüşən tərəflərin faktiki surətdə hərbi əməliyyatlar apardığı ərazidir [10, s. 27-28].

Müharibə teatrına bir neçə hərbi əməliyyatlar teatrı daxil ola bilər. Silahlı münaqişənin məkan hədlərini ifadə etmək üçün istifadə edilən bu təsnifat beynəlxalq humanitar hüquq normalarının tətbiqinə təsir göstərmir. Belə ki, həmin normalar yalnız hərbi əməliyyatlar teatrında deyil, döyüşən tərəflərin bütün ərazisində tətbiq edilməlidir.

Beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq neytral ölkələrin, habelə ümummilli və ümumbəşəri dəyər kimi xüsusi olaraq qorunan mədəniyyət obyektlərinin, habelə zərər görməsi mülki əhali üçün faciəli nəticələrə səbəb ola bilən yüksək təhlükə mənbələrinin (məsələn, atom elektrik stansiyalarının), habelə beynəlxalq əhəmiyyətli boğaz və kanalların, Ay və digər səma cismlərinin ərazisindən hərbi əməliyyatlar teatrı kimi istifadə edilə bilməz.

Müasir dövrdə beynəlxalq humanitar hüququn kiberməkanda baş verən silahlı münaqişələrdə tətbiqi xüsusi aktuallıq kəsb edən və kifayət qədər mürəkkəb xarakter daşıyan problemlərdən biri kimi çıxış edir. Nəzərə almaq lazımdır ki, hazırkı şəraitdə bir çox dövlətlər informasiya-kommunikasiya texnologiyalarından (İKT) hərbi-siyasi məqsədlərini həyata keçirmək, bu sahədə vəzifələr həll etmək üçün vasitə kimi istifadə etməyə çalışırlar və bunun müxtəlif üsul və metodlarını işləyib hazırlayırlar. Burada əslində İKT-dən bir silah kimi istifadə edilir. Lakin bu silah xüsusi məkanda – kiberməkanda tətbiq olunur. Nəticədə həmin məkanda mahiyyət etibarilə silahlı münaqişə baş vermiş olur. Lakin təəssüflər olsun ki, bu zaman beynəlxalq humanitar hüquq normalarının necə tətbiq olunması ilə bağlı vahid yanaşma və dəqiq hüquqi mexanizm və ya prosedur hələ formalaşmayıb.

Mütəxəssislər qeyd edirlər ki, beynəlxalq humanitar hüququn (Haaqa hüququ və Cenevrə hüququnun) prinsip və normalarının kiberməkanda baş verən silahlı münaqişələrə tətbiqi həmin prinsip və normaların təfsiri kontekstində müəyyən çətinliklərlə müşayiət olunur. Bu çətinliklər, bir tərəfdən, kiberməkanın beynəlxalq humanitar hüququn tətbiq sahəsi kimi yeni olması, digər tərəfdən isə İKT-dən silah kimi istifadə edilməsi ilə bağlı yaranan münasibətləri tənzim edən universal beynəlxalq müqavilənin olmaması ilə şərtlənir [13].

Hazırda inernet və süni intellekt texnologiyalarının ictimai həyata olduqca geniş və son dərəcə sürətli tətbiqi nəticəsində həyati əhəmiyyətli əksər mülki infrastruktur obyektləri (məsələn, enerji obyektləri və s.) kiberməkana sıx surətdə inteqrasiya olunub. Bu isə kiberməkandan istifadə edilməklə həmin obyektlərə əhəmiyyətli zərər yetirilməsi riskini xeyli dərəcədə artırır. Həyati əhəmiyyətli infrastruktur obyektlərinə edilən kiberhücumlar şəraitdən asılı olaraq çoxsaylı insan ölümünə və sağlamlıq üçün xəsarətlərə də səbəb ola bilər. Təsadüfi deyildir ki, bir çox hərbi ekspertlər kiber silahların yaratdığı təhlükəni nüvə silahlarının yarada biləcəyi dağıdıcı təsirlə müqayisə edirlər.

Bütün ölkələr kibertəhlükəsizlik sahəsində beynəlxalq əməkdaşlığın vacibliyini etiraf etsələr də, ortaq “dilin” və yanaşmanın olmaması beynəlxalq əməkdaşlığı çətinləşdirir. Buna görə ölkələrin kibertəhlükəsizlik termininin ümumi qəbul edilmiş tərifi haqqında razılığa gəlməsi zəruridir. Kibertəhdidlərin transsərhəd xarakteri ölkələri kibertəhlükəsizlik sahəsində sıx əməkdaşlığa sövq edir. Kibertəhlükəsizlik strategiyasının beynəlxalq ictimaiyyətin məqsədlərinə zidd olmadığı,

qlobal səviyyədə kibertəhlükəsizlik problemləri ilə mübarizəni dəstəklədiyi də analiz edilməlidir [5, s. 50].

Beləliklə, bu paraqrafda qeyd edilən bütün fikirləri ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar:

1. Beynəlxalq humanitar hüququn tətbiq sahəsi olduqca mürəkkəb və çoxcəhətli bir kateqoriyadır. Beynəlxalq humanitar hüququn tətbiq sahəsinə daxil olan hallar və bunu şərtləndirən meyarlar tam dəqiqliyi təyin olunmayıb. Müasir silahlı münaqişələrin xarakterinin əvvəlkilərlə müqayisədə əhəmiyyətli dəyişikliklərə məruz qalması isə bu problemi bir qədər də müərəkkəbləşdirib.

2. Beynəlxalq humanitar hüquq normalarının mütləq əksəriyyətinin tətbiqi üçün əsas şərt silahlı münaqişənin başlaması və silahlı münaqişə tərəflərindən birinin nəzarətinə qarşı tərəfə aid əsir, yaralı və ya mülki şəxslərin keçməsidir. Burada silahlı münaqişənin başlanması səbəbləri, silahlı qüvvə tətbiqinə bəraət qazandıran və ya bunu istisna edən faktorlar, işğal edilmiş, nəzarətə götürülmüş ərazisinin miqyası, işğala qarşı müqavimətin olub-olmaması və s. bu kimi hallar önəm kəsb etmir.

3. Təcrübədə hərbi əsirlərin mübadiləsi parkarikası mövcud olsa da və həyata keçirilsə də, hərbi əsirlərin mübadiləsi bir institut kimi beynəlxalq humanitar hüquq aktlarında təsbit edilməyib və onun qaydaları normativ qaydada dəqiq müəyyən edilməyib. Belə bir institutun beynəlxalq humanitar hüququn mənbəyini təşkil edən konvensiylarda hüquqi aspektdə, detallı qaydaları ilə birlikdə təsbit edilməsi beynəlxalq humanitar hüququn şəxslərə görə tətbiqi sahəsində səmərəliliyi artırmaqla, bu sahədə hüquqi tənzimləmənin səmərəliliyinin artırılmasına mühüm töhfə verə bilər.

4. Beynəlxalq humanitar hüquq normalarının sülhyaratma əməliyyatlarına tətbiqinin xüsusiyyətləri və bunun hansı şərtlər daxilində mümkün olması, həmin normlara hansı andan etibarən və hansı həcmdə riayət dilməli olması, sülhyaratma qüvvələrini təmsil edən hərbi qulluqçulara hansı hallarda kombatant və ya hərbi əsir statusu verilə bilməsi və s. kimi hələ də açıq qalan məsələləri birmənalı və detallı surətdə tənzim edən normaların işlənib hazırlanması və beynəlxalq humanitar hüququn mənbəyini təşkil edən beynəlxalq sənədlərdə təsbit edilməsi məqsədəmüvafiq olardı.

5. Kiberməkanda baş verən silahlı münaqişələrə münasibətdə beynəlxalq humanitar hüququn tətbiqi kimi xüsusi aktuallıq kəsb edən və kifayət qədər mürəkkəb xarakter daşıyan problemin həlli baxımından İKT-dən silah kimi istifadə olunmaqla həmin məkanda mahiyyət etibarilə silahlı münaqişənin baş verdiyi hallar üçün beynəlxalq humanitar hüquq normalarının necə tətbiq olunması ilə bağlı vahid yanaşma, dəqiq hüquqi mexanizm və ya prosedurun formalaşmalaşdırılması əhəmiyyətli olardı.

Beynəlxalq qanunvericilik aktlarında kiberhücum nəticəsində zərər vurula bilən və beynəlxalq humanitar hüquq normalarının qoruması altında olan mülki infrastruktur obyektlərinin əlamətləri və dairəsi dəqiq şəkildə müəyyən edilməlidir.

6. Müasir dövrdə silahlı münaqişələr şəraitində insan hüquqlarının müdafiəsi mexanizmlərinin yeni reallıqlara uyğun olaraq təkmilləşdirilməsinə ciddi zərurət duyulur.

Silahlı münaqişə dövründə ayrı-ayrı kateqoriya şəxslərin himayəsi və qorunması tədbirlərini təsbit edən beynəlxalq humanitar

hüquq normaları heç bir ayrı-seçkilik qoyulmadan tətbiq edilməli və bunun üçün operativ səmərəli, müasir silahlı münaqişə şəraitinin xarakterinə daha çox uyğun gələn mexanizmlər işlənib hazırlanmalıdır.

**Ədəbiyyat**

1. Axundov R.Ə. Qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarının tətbiqi: / hüquq üzrə fəlsəfə doktoru dis. avtoreferatı / - Bakı, 2017. - 28 s.
2. Allahverdiyev, Ə. Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər / Ə.Allahverdiyev. - Bakı: Elm və təhsil, - 2017. - 396 s.
3. Aslanov, Z.N. Silahlı münaqişələr dövründə qadın və uşaq hüquqlarının müdafiəsində beynəlxalq hüquq normalarının milli qanunvericiliyə implementasiyası // Dirçəliş – XXI əsr, - 2013. № 178-179, - s. 278-294.
4. Düşmən silahlı münaqişələr dövründə qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində beynəlxalq hüquq normalarına məhəl qoymur, dünya birliyi isə susur: [Elektron resurs] / URL: http://huquq.org.az/az/interview/azerbaijan-dusm%C9%99n-silahli-munaqis%C9%99l%C9%99r-dovrund%C9%99-qadin-v%C9%99-usaq-huquqlarinin-mudafi%C9%99si-sah%C9%99sind%C9%99-beyn%C9%99lxalq-huquq-normalarina-m%C9%99h%C9%99l-qoymur-dunya/
5. İmamverdiyev Y.N. Yeni nəsil milli kibertəhlükəsizlik strategiyaları // İnformasiya cəmiyyəti problemləri, - 2013. № 2 (8), - s. 42-51.
6. Qasımova, A.M. Müasir beynəlxalq hüquqda hərbi münaqişələr dövründə uşaq hüquqlarının müdafiəsi / hüquq üzrə fəlsəfə doktoru dis. / - Bakı, 2021. - 136 s.
7. Апраксин, П. Международное гуманитарное право и право прав человека: сходства, различия, взаимодополняемость // Белорусский журнал международного права и международных отношений, - 1999. № 1, - с. 22-26.
8. Бухмин, С.В. Применение норм международного гуманитарного права в вооруженных конфликтах с участием сил ООН: / дис. канд. юрид. наук -Казань, 2005.-243 с.
9. Вите, С. Типология вооруженных конфликтов в международном гуманитарном праве: правовые концепции и реальные ситуации: [Электронный ресурс] / URL: https://www.icrc.org/ru/doc/assets/files/other/vite.pdf
10. Копыткова, Н.В. Международное гуманитарное право. Курс лекций по спецкурсу / Н.В.Копыткова. – Гомель: Гомельский государственный университет им. Ф.Скорины, - 2009. - 74 с.
11. Матвеева, Т.Д.Международное право: учебник для академического бакалавриата / Т.Д.Матвеева. - Москва: Издательство Юрайт, - 2014. - 370 с.
12. Практический словарь гуманитарного права: [Электронный ресурс] / URL: https://slovar-gumanitarnogo-prava.org/content/article/4/situatsii-i-litsa-ne-podpadaiushchie-pod-deistvie-gumanitarnogo-prava/
13. Стрельцов, А. Применение международного гуманитарного права к вооруженным конфликтам в киберпространстве: [Электронный ресурс] / URL: https://digital.report/konflikt-v-kiberprostranstve/
14. Тузмухамедов Б.Р. Международно-правовая классификация вооруженных конфликтов: дефиниции и реальность // Пути к миру и безопасности, - 2018. № 1 (54), - с. 44-53.
15. Шиндлер, Д. Международный Комитет Красного Креста и права человека / Д.Шиндлер. - Москва: Международный Комитет Красного Креста (МККК), - 1994. - 16 с.
16. Doswald-Beck, L., Vite, S. Le droit international humanitaire et le droit des droits de l'homme // RICR, - Mars-avril: - 1993. № 800. - 128 p.

## SCOPE OF INTERNATIONAL HUMANITARIAN LAW

**Mammadov Nasir Natig oghlu**

This article examines the field of application of international humanitarian law. The article consistently analyzed the issues of application of international humanitarian law according to the situation, according to the persons, according to the time and according to the place. The author points out that the field of application of international humanitarian law is a very complex and multifaceted category, the cases included in that field of application and the criteria that determine it are not fully defined. Also, the article examines the need to establish the institution of the exchange of prisoners of war in the conventions that constitute the source of international humanitarian law in the legal aspect, the features of the application of international humanitarian law norms to peacekeeping operations, as well as the application of international humanitarian law in relation to armed conflicts occurring in cyberspace.

**Key words:** international law, international humanitarian law, international armed conflict, Geneva Conventions, application of international humanitarian law, application by situation, application by persons, application by time, application by place.

## СФЕРА ПРИМЕНЕНИЯ МЕЖДУНАРОДНОГО ГУМАНИТАРНОГО ПРАВА

**Мамедов Насир Натик оглу**

В данной статье исследуется область применения международного гуманитарного права. В статье последовательно анализируются вопросы применения международного гуманитарного права по ситуации, по лицам, по времени и по месту. Автор указывает, что область применения международного гуманитарного права является очень сложной и многогранной категорией, случаи, входящие в эту область применения, и критерии, ее определяющие, до конца не определены. Также в статье рассматривается необходимость закрепления института обмена военнопленными в конвенциях, составляющих источник международного гуманитарного права в правовом аспекте, особенности применения норм международного гуманитарного права к миротворческим операциям, а также как применение международного гуманитарного права в отношении вооруженных конфликтов, происходящих в киберпространстве.

**Ключевые слова:** международное право, международное гуманитарное право, международный вооруженный конфликт, Женевские конвенции, применение международного гуманитарного права, применение по ситуации, применение лицами, применение по времени, применение по месту.

## ULUSLARARASI İNSANİ HUKUKUN KAPSAMI

**Memmedov Nasır Natığoğlu**

Bu makale uluslararası insancıl hukukun uygulama alanını incelemektedir. Makale, uluslararası insancıl hukukun uygulama konularını duruma, kişilere, zamana ve yere göre tutarlı bir şekilde analiz etmiştir. Yazar, uluslararası insancıl hukukun uygulama alanının çok karmaşık ve çok yönlü bir kategori olduğuna, bu uygulama alanına giren davaların ve onu belirleyen kriterlerin tam olarak tanımlanmadığına dikkat çekmektedir. Ayrıca makale, uluslararası insancıl hukukun kaynağını oluşturan sözleşmelerde savaş esiri mübadelesi kurumunun hukuki yönden tesis edilmesi gerekliliğini, uluslararası insancıl hukuk normlarının barışı koruma operasyonlarına uygulanma özelliklerini de incelemektedir. Yanı sıra, özellikle siber uzayda meydana gelen silahlı çatışmalarla ilgili olarak uluslararası insancıl hukukun uygulanması gibi ilgili konular incelenmektedir.

**Anahtar Kelimeler:** uluslararası hukuk, uluslararası insancıl hukuk, uluslararası silahlı çatışma, Cenevre Sözleşmeleri, uluslararası insancıl hukukun uygulanması, duruma göre uygulama, şahıslara göre başvuru, zamana göre uygulama, yere göre uygulama.